KREDO 28 aprel 2021-ci il

# "GÖZLƏDİM"



(Portret cizgilərinə əlavə)




Əjdər Olun özündən əvvəl yaradıcılığı ilə tanışam. Əldə etdiyim hər yeni kitabını, o cümlədən, mətbuatda gedən şeir, nəsr nümunələrini (dram əsərlərini bir müddət sonra) oxuya-oxuya, özüm üçün qeydlər etmişəm, nə vaxtsa onları bir "damın altına" yığıb, ortaya urvatlı yazı çıxarmaq ümidilə. Onu da deyim ki, bu xırda-para qeydlər, sonradan mənim üçün əzaba, müsibətə çevrilir. Çünki onlar bütöv xarakter cizgiləridisapı qırılmış muncuğa bənzəyir. O yazıları bir yerə yığmaq vaxt, səbir və əlbəttə (ən başlıcası) sevgi tələb edir. O da etiraf olunmalıdır ki, müsibət deyilən nəsnə, ruhani bir auranın içində baş verir.

AYB Ağdaş bölməsinə təyinatımdan sonra, ilk jesti Əjdər Ol etdi, böyük bir bağlama kitab dəsti göndərməklə.

Əjdərin yaradıcığına müntəzəm üz tutanlara yaxşı məlumdur: nə və nədən yazır yazsın, öz obrazı aydın görünür. Sanki lap yaxınlıqdadır - nəfəsini duyursan, səninlə asanlıqla ünsiyyət yaradır, arxasınca çəkib apardıqca aparır...

Onun şeirlərindən söz açmaq üçün heç də Amerika kəşfi etmək, dəbdə olan yad leksikondan ədəbi dilimizə pərçim edilən terminləri sadalamaq lazım deyil. İktibas caizsə, "boğazdan aşağı" və "boğazdan yuxarı" danışığı, bir könül adamı olaraq, dostumuz seçib ayırmağı yaxşı bilir.

Bəzən yaxın, doğma adamların arasında, özünü istədiyin kimi təqdim edə, ürəyindən keçənləri detallı şəkildə qarşındakına çatdıra bilmirsən. Səni tərpədib həyəcanlandıram o "nəsə", əslində özünlə olan söhbətdir. Heç kimə açıb deyə bilmədiyini, özünə söyləyir insan. Beləcə, biz Əjdəri oxumuruq ki, ürəyinin səsini dinləyirik. Ürək söhbətini hər adamla eləmirlər.

Əjdərlə söhbətin altını üstünə çevir, "palan içi "kimi açıb ortaya tök, xıltı (Rəfayel Hüseynovun təbirincə)" yoxdur, görünmür. Konuya dəxli olan şeirdə ("Gözlədim") də, yumşaq səslənərsə, o, bizi "dərdləşməyə" çağırır, öz bacın, qardaşınla necə dərdləşirsənsə elə.

*Daha nə gizlədim?*
*Məni gözləyənlər bağışlasınlar,*
*Onları gözlədib, səni gözlədim.*

Adil Mirseyid yazırdı: "O, mənə bir dəftər bağışlayıb - bu üstü nəbati naxışlı, adi bir ümumi dəftərdi." Məncə o bağışlanan adi dəftər deyildi, ötürülən nəfəs idi. Oxuduğum şeirdə də mənə elə gəlir, sözlər diqtə edilməyib, yəni bilgisayar dillərinin heç bir xidməti yoxdur, əksinə-akvarellə çəkilib. Hər halda rəng çalarlarından belə hiss edirəm.

Şerirdəki incə yumor, yaradıcı energetikaya qoşulan bizlərə uşaq təbəssümü paylayır. Təbəssüm, yaşımızın hər vədəsində uşaqlığın təcəssümü və təcəllisidir! Onu mövzumuzun predmeti olan şeirdə, xüsusi şövq və hərarətlə bizə açıqlayan(-məhz açıqlayan), zən edirəm, müəllifin oxucu qarşısında səmimiyyətidir.

*Əlimi üzmədim.*
*Kimi gözlədimsə harada, nə vaxt,*
*Həm onu, həm də ki səni gözlədim.*

Səmimiyyətli (onun yaratdığı təbəssümü) izləməklə ruhların daxili dialoquna-rənglərin (xatirələrin işığında) rəqsinə düşürük. Əlbət bu, qaraçı rəqsi deyil-yallıdı, holavardı!

Duyğuların çəkib apardığı yerdə bir qədər də gəzişmək istəyirəm. Əjdərin şeirində klassika ilə qlamur elementlərin (bura səhnə estetikasının ~~elementlərini~~ də əlavə etmək olar) üstünlüyü qabarıq görünür. Oxu zamanı bir yaradıcı bəy əfəndi olaraq o, bizə bu həzzi yaşadır. Mən burada, yuxarıda xatırlatdığım "nəbati naxışları" görürəm. O naxışlar ki, nənələrimizin toxuduğu xalılarda, xalçalarda ilmələrə köçüb, çeşnilərə hopub.

Uşaqlar heç vaxt yalan danışmaz, bildiklərini ilk qarşılarına çıxanlara açıb söyləyərlər. Əjdərdəki saqqallı uşaq saf və məsumdur:

Yoruldum, bezmədim,
Uzaq bir şəhərdə bilmirəm niyə,
Dayanıb küçədə səni gözlədim.

Vallah "nə gizlədim" birdən-birə dalağım sancır-uşaqlar da böyüklər kimi yalan damışmağa başlasa?! Onda vay halımıza! Hər halda təsəlli yerimiz var-biz mələk olmasaq da, içimizdəki uşaq mələkdir-yaşada bildikcə!

**P.S.** *Çoxdandır arxivimə əl gəzdirmirdim.Təsadüfən əlimə keçən qaralama qeydlərə(yazılma tarixi 19.09.17) baxıram. Bu yazı kimi Əjdər də bizdən uzaqdadır. Yox! Ola bilməz sözlərimə acığım tutur. Xəyalların əlində elə bir uzaqlıq varmı? Nağıllarda soraq verilən durna telini(arzuları,-diləkləri) oda tutub muradımıza yetişərik,-necə ki qardaşımızın indicə, bu an, uzaqdan gələn səsinə, harayına qoşuruq:*

*Qəsd olsa*
*Hər palıd bir dar ağacıdır.*
*Hər döngə, Hər tin*
*Pusqu yeri.*

*Şeytan ümidsiz olar. Uca Gücün Mərhəmətinə və bəndənin Ədalətinə inamımızı itirməmişik.Tanrı qapını açsın.Səni gözləyirik Əjdər!*

**11.04.2021**



**Fəxrəddin ƏSƏD**